**Xərçəng xəstəliyindən irəli gələn halların müalicəsi məqsədilə təyin edilən zoledron turşusu (Zometa) inyeksiyaları ilə müalicəyə başlamazdan əvvəl və müalicə müddətində sizin üçün mühüm olan təhlükəsizlik məlumatları bu yaddaş kartında əks olunur**

# ÇƏNƏ SÜMÜYÜNÜN OSTEONEKROZU (ÇSO)

**Həkiminiz tərəfindən sizə zoledron turşusu inyeksiyası (Zometa) ilə müalicə təyin edilib.**

**Xərçəng xəstəliyi ilə əlaqədar halların müalicəsi üçün zoledron turşusu inyeksiyası (Zometa) ilə müalicə alan pasiyentlərdə əlavə təsir kimi bəzən çənə sümüyünün osteonekrozu (ÇSO) (çənə sümüyünün zədələnməsi) qeyd edilmişdir. Müalicə dayandırıldıqdan sonra da ÇSO-un baş verməsi mümkündür.**
**Siz, çənə sümüyünün osteonekrozunun yaranma riskini azaltmaq üçün müəyyən tədbirləri həyata keçirməlisiniz:**

## Müalicəyə başlamazdan əvvəl:

- **Müalicəyə başlamazdan öncə həkiminizdən sizə ÇSO barədə məlumat verməsini xahiş edin**
- **Həkiminizdən zoledron turşusu ilə (Zometa) müalicəyə başlamazdan əvvəl stomatoloji müayinənin tövsiyə olunub olunmadığını dəqiqləşdirin və stomatoloqunuza zoledron turşusu ilə müalicəyə başladığınıza dair məlumat verin**
- **Ağız boşluğu və ya dişlərinizdə hər hansı bir problem olarsa, bu barədə həkimlərinizə məlumat verin**

**Stomatoloji əməliyyat keçirən (məsələn, diş çıxarılması), müntəzəm stomatoloq müayinəsindən keçməyən və ya diş əti xəstəlikləri olan, siqaret çəkən, müxtəlif xərçəng müalicələri alan və ya bisfosfanatlarla müalicə almış (sümük problemlərini müalicə etmək və ya qarşısını almaq məqsədilə) pasiyentlərdə çənə sümüyü osteonekrozunun inkişaf riski daha yüksək ola bilər.**

## Müalicə müddətində:

- **Siz ağız boşluğunun gigiyenasını təmin etməli, protezlərinizin düzgün yerinə oturmasından əmin olmalı və müntəzəm şəkildə stomatoloq müayinəsindən keçməlisiniz**
- **Stomatoloji müalicə aldığınız zaman və ya stomatoloji əməliyyat planlaşdırıldıqda (məsələn, diş çıxarılması) bu barədə həkiminizə məlumat verin və stomatoloqunuza zoledron turşusu ilə (Zometa) müalicə almağınız barədə məlumat verin**
- **Əgər ağız boşluğunda və ya dişlərinizdə dişlərin düşməsi, ağrı və ya şişkinlik, sağalmayan yaralar və ya ifrazat kimi hallar olarsa, dərhal həkiminiz və stomatoloqunuzla əlaqə saxlayın, belə ki, bu əlamətlər çənə sümüyünün osteonekrozu əlamətləri ola bilər**

**Daha ətraflı məlumat üçün dərman vasitəsinin istifadəsi üzrə təlimatla tanış olmağınız xahiş olunur.**

**AZ/ZOM/05.2022/local ver.1.0/426238/EU RMP ver.11.0**

NOVARTIS

“Yalnız səhiyyə mütəxəssisləri üçün nəzərdə tutulub. Risklərin idarə olunması proqramı çərçivəsində nəşr edilib. Reklam xarakteri daşımır.”

***Azərbaycan Respublikası ərazisində bu dərman vasitəsi ilə əlaqədar hər hansı bir məlumat almaq üçün və ya şikayət olduğu zaman aşağıdakı təşkilatla əlaqə saxlamağınız xahiş olunur:***

Novartis Pharma Services AG şirkətinin Azərbaycan Respublikasındakı Filialı
AZ1014, Bakı şəhəri, Rəsul Rza küçəsi 75, “Winter Park” Plaza.
Telefon: +994 12 5055822, +994 12 5055833.

Bu dərman vasitəsinin istifadəsi zamanı yaranan əlavə təsirlər haqqında məlumatları Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Analitik Ekspertiza Mərkəzinin Farmakonəzarət şöbəsinə (Ünvan: AZ1065, Azərbaycan Respublikası; Bakı şəh., Yasamal rayonu, C.Cabbarlı küç.34.; Faks: (+99412) 596-07-16; e-mail: adr@pharma.az; Tel.:(+99412) 596-05-20; Qaynar xətt (+99412) 596-07-12; Mob.: (+99450) 246-93-84 və ya Novartis Pharma Services AG şirkətinin əlavə təsirlər barədə məlumatları qəbul edən xəstələrin təhlükəsizliyi üzrə şöbəsinin elektron poçt ünvanına:
drugsafety.cis@novartis.com
bildirməyinizi xatırladırıq.

Çap tarixi – May 2022
Tiraj – 100 əd.
**AZ/ZOM/05.2022/local ver.1.0/426238/EU RMP ver.11.0**